**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

__________________

14.04.2023-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Səhiyyə sistemi" işçi qrupunun 2023-cü il üzrə Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (Son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal Rəqabətlilik Hesabatı*** | | | | | | | |
| **1.** | **5.01 Sağlam ömür müddəti** | 73,1 bal, 90-cı yer | Ölüm və əlillik nəzərə alınmaqla, yeni doğulmuş körpənin sağlam vəziyyətdə yaşaması gözlənilən illərin sayı | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | ***I. Reproduktiv sağlamlığın təmin edilməsi:*** | | | |
| | | | | 1. Ailə həkimi institutunun potensialının artırılması, ailə həkimlərinin antenatal xidmətə fəal cəlb olunması; | 01.12.2023 | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | F.Hüseynbəyov, Ş.Cəmilzadə, Q.Haqverdiyev |
| | | | | 2. Ana və körpə ölümü hallarının minimuma endirilməsi məqsədilə hamilə qadınlara, yenidoğulmuşlara, xüsusilə azçəkili körpələrə zəruri tibbi xidmət göstərilməsi üçün kadrların peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi, infrastrukturun müasirləşdirilməsi və tibbi təchizat sisteminin gücləndirilməsi; | | | |
| | | | | 3. Hamilə qadınların maarifləndirilməsi üçün müxtəlif interaktiv internet səhifələrinin və mobil tətbiqlərin yaradılması; | | Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi) | Q.Haqverdiyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 4. Fertil yaşlı əhali arasında ailə planlaşdırılması və kontrasepsiya haqqında maarifləndirmə işlərinin aparılması; | Mütəmadi | Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi) | Q.Haqverdiyev |
| | | | | 5. Uşaqlar doğulanadək cins seçiminin qarşısının alınması istiqamətində maarifləndirilmə işlərinin aparılması. | | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi) | K. Əliyeva, Q.Haqverdiyev |
| | | | | ***II. Uşaqların sağlam böyüməsinin təmin edilməsi:*** | | | |
| | | | | 1. Uşaq ölümü hallarının minimuma endirilməsi məqsədilə uşaqlara göstərilən tibbi xidmətlərin əlçatanlığının və keyfiyyətinin yaxşılaşdırılması üçün ixtisaslaşmış tibb mərkəzlərinin və ya tibb bölmələrinin kadr potensialının, infrastruktur imkanlarının və tibbi təchizat sisteminin gücləndirilməsi; | 01.12.2023 | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | F.Hüseynbəyov, Ş.Cəmilzadə, Q.Haqverdiyev |
| | | | | 2. Yoluxucu xəstəliklərə qarşı uşaqların planlı peyvəndlənməsinin həyata keçirilməsi üçün kadr potensialının gücləndirilməsi, infrastrukturun müasirləşdirilməsi və tibbi təchizatın yaxşılaşdırılması, peyvəndləmənin əhatə dairəsinin genişləndirilməsi; | | Səhiyyə Nazirliyi | F.Hüseynbəyov, Q.Haqverdiyev |
| | | | | 3. Rəqəmsal texnologiyalardan (mobil tətbiqlər, video-zəng və s.) istifadə edilməklə uşaqların peyvəndlənməsinə dair valideynlər arasında maarifləndirmə işlərinin həyata keçirilməsi. | Mütəmadi | Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi) | Q.Haqverdiyev |
| | | | | ***III. Uşaqların sağlam həyat tərzinin və sağlam qidalanmasının təşviqi:*** | | | |
| | | | | 1. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində zəruri işlərin görülməsi, o cümlədən "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında müvafiq dəyişikliklərin edilməsinə dair layihənin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi; | 01.10.2023 | Qida Təhlükəsizliyi Agentliyi | V.Sadıxova |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 2. Sağlam qidalanmanın təşviqi və təbliği məqsədilə təhsil müəssisələrində müvafiq maarifləndirici təlimlərin və müsabiqələrin keçirilməsi; | 01.12.2023 | Qida Təhlükəsizliyi Agentliyi | V.Sadıxova |
| | | | | 3. Uşaqların sağlam böyüməsi üçün həkim və qida mütəxəssislərinin məsləhətləri olan mobil tətbiqlərin və ya müxtəlif interaktiv internet səhifələrinin yaradılması; | | Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi) | Q.Haqverdiyev |
| | | | | 4. Ümumi təhsil müəssisələrində sağlam həyat tərzi və sağlam qidalanmanın təşviqi üzrə kompleks tədbirlərin həyata keçirilməsi; | | Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi | F.Hüseynbəyov, Q.Haqverdiyev, A.Mirzəzadə |
| | | | | 5. Ümumi təhsil müəssisələrində təhsilalanların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə müvafiq sorğuların həyata keçirilməsi. | 01.11.2023 | Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi), Elm və Təhsil Nazirliyi | Q.Haqverdiyev, A.Mirzəzadə |
| | | | | ***IV. Uşaqların psixi sağlamlığının möhkəmləndirilməsi:*** | | | |
| | | | | 1. Rəqəmsal texnologiyalardan istifadə edilməklə psixoloqların uşaqlarla görüşlərinin keçirilməsi, psixoloji dəstəyə ehtiyacı olan uşaqlar üçün xüsusi müalicə proqramlarının hazırlanması; | 01.11.2023 | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | F.Hüseynbəyov, Q.Haqverdiyev |
| | | | | 2. Ağır və xroniki psixi pozuntusu olan uşaq və yeniyetmələrin müalicəsi üçün tibbi mərkəzlərin kadr potensialının gücləndirilməsi, infrastruktur imkanlarının genişləndirilməsi və tibbi təchizat sisteminin yaxşılaşdırılması. | | | F.Hüseynbəyov, Ş.Cəmilzadə, Q.Haqverdiyev |
| | | | | ***V. Tibbi xidmətin keyfiyyətinin və əlçatanlığının artırılması:*** | | | |
| | | | | 1. 2022-ci ildən etibarən müvafiq dövlət proqramları ilə icrası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə həvalə edilmiş təşkilati tədbirlərlə bağlı, eləcə də müxtəlif xəstəliklərin profilaktikası, müalicəsi və reabilitasiyası, kadr potensialının gücləndirilməsi və əhalinin maarifləndirilməsi üzrə işlərin təşkili; | 01.12.2023 | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi | Ş.Cəmilzadə, T.Mirzəbəyli |
| | | | | 2. Tibb müəssisələrinin kadr potensialının gücləndirilməsi və fəaliyyətlərinə ixtisaslı mütəxəssislərin cəlb edilməsi; | | | |

<table>
<tr><td rowspan="12"></td><td rowspan="12"></td><td rowspan="12"></td><td rowspan="12"></td><td>3. Tibbi xidmətlərə əlçatanlıq səviyyəsinin artırılması və “İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi”nin təkmilləşdirilməsi;</td><td rowspan="9">01.12.2023</td><td>İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi</td><td>Ş.Cəmilzadə</td></tr>
<tr><td>4. Tibb müəssisələrinin maddi-texniki bazalarının gücləndirilməsi və korporativ idarəetmənin təkmilləşdirilməsi;</td><td rowspan="4">Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi</td><td rowspan="4">T.Mirzəbəyli, Ş.Cəmilzadə</td></tr>
<tr><td>5. Əhalinin icbari tibbi sığorta və sağlamlıqla bağlı məlumatlılıq səviyyəsinin artırılması;</td></tr>
<tr><td>6. Mərkəzi idarəetmənin, tibb müəssisələri şəbəkəsinin və tibbi xidmətlərin səmərəliliyinin yüksəldilməsi;</td></tr>
<tr><td>7. Vərəm xəstəliyinin müayinəsi, müalicəsi və profilaktikası üzrə tibbi xidmətin təkmilləşdirilməsi;</td></tr>
<tr><td>8. Ölkədə dərman və tibbi preparatlar istehsalının təşkilinə dəstək verilməsi və bu məhsulların keyfiyyət standartlarının tələblərinə uyğunluğunun yoxlanılması;</td><td>Səhiyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi</td><td>F.Hüseynbəyov, X.Balakişiyev</td></tr>
<tr><td>9. Əhalinin öz sağlamlığını qoruması, onların xəstəliklərin erkən əlamətləri barədə rəqəmsal texnologiyalar tətbiq etməklə maarifləndirilməsi üçün mobil tətbiqlərin və interaktiv internet səhifələrin yaradılması;</td><td>Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi)</td><td>Q.Haqverdiyev</td></tr>
<tr><td>10. Qeyri-infeksion xəstəliklərin qarşısının alınması məqsədilə skrininqlərin aparılması (onkoloji xəstəliklərin erkən mərhələdə aşkarlanmasına nail olunması);</td><td rowspan="2">Səhiyyə Nazirliyi (o cümlədən İctimai Səhiyyə və İslahatlar Mərkəzi)</td><td rowspan="2">F.Hüseynbəyov, Q.Haqverdiyev</td></tr>
<tr><td>11. Tibbi xidmətlərin keyfiyyət standartları sisteminin işlənilib hazırlanması və tətbiqi, kliniki protokolların yenilənməsi, tibb müəssisələrinin heyəti üçün bilik və bacarıqların artırılması məqsədilə təlimlərin keçirilməsi.</td></tr>
<tr><td colspan="4">VI. Vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi:</td></tr>
<tr><td>1. Fərdi reabilitasiya proqramının tətbiqi ilə bağlı tədbirlərin davam etdirilməsi;</td><td rowspan="2">01.12.2023</td><td rowspan="2">Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi</td><td rowspan="2">S.Qocayev</td></tr>
<tr><td>2. Əlilliyin müəyyən olunması meyarlarının təkmilləşdirilməsi və əlilliyi olan şəxslərin reyestrinin formalaşdırılmasının başa çatdırılması;</td></tr>
</table>

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 3. Reabilitasiya vasitələrinin siyahısının genişləndirilməsi və reabilitasiya infrastrukturuna əlçatanlığın təmin edilməsi; | | | |
| | | | | 4. Respublikanın ali və orta təhsil müəssisələrində tələbə/şagird və müəllim heyəti üçün sağlam həyat tərzi barədə müxtəlif maarifləndirici resursların yaradılması; | 01.12.2023 | Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi) | Q.Haqverdiyev |
| | | | | 5. Sağlam həyat tərzi və davranış risk amilləri barədə maarifləndirici materialların (videoçarxlar, bukletlər, plakatlar və s.) hazırlanması və aidiyyəti üzrə paylanılması, müvafiq mobil tətbiqlərin istifadəyə verilməsi; | | | |
| | | | | 6. Əhalinin müxtəlif təbəqələri, o cümlədən işləyən əhali üçün fiziki aktivliyə dair maarifləndirici materialların (bukletlər, plakatlar, kitabçalar, sosial çarxlar və s.) hazırlanması və ilkin səhiyyə xidməti göstərən müəssisələr, KİV və sosial şəbəkələr vasitəsilə əhaliyə çatdırılması; | | | |
| | | | | 7. Əhalinin yaş kateqoriyaları, sosial-iqtisadi və gender amillərinə uyğun olaraq sağlam həyat tərzi və davranış risk amilləri ilə bağlı vəziyyətin müntəzəm monitorinqi və qiymətləndirilməsi; | İl ərzində | | |
| | | | | 8. Əhalinin sağlam həyat tərzi, reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində bilik səviyyəsinin müasir dövrün tələblərinə uyğun yüksəldilməsi istiqamətində zəruri tədbirlərin görülməsi; | 01.12.2023 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi) | K.Əliyeva, Q.Haqverdiyev |
| | | | | 9. Yeniyetmə və gənclər arasında təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi, sağlam qidalanma vərdişlərinin formalaşdırılması üzrə zəruri tədbirlərin həyata keçirilməsi; | | | |
| | | | | 10. Erkən nikah, uşaq evlilikləri və qohumlar arasında nikah hallarının fəsadları barədə maarifləndirmə işlərinin aparılması. | Mütəmadi | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| **2.** | **Bütün aidiyyəti indikatorlar** | **-** | **-** | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi. | İl ərzində | Bütün aidiyyati qurumlar | İşçi qrupun bütün üzvləri |
| **3.** | **Bütün aidiyyəti indikatorlar** | **-** | **-** | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması. | İl ərzində | Bütün aidiyyati qurumlar | İşçi qrupun bütün üzvləri |